*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 oktyabr 2016-cı il № 78 (2093) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. İclası giriş nitqi ilə açan dövlətimizin başçısı ötən müddət ərzində görülən işləri geniş təhlil edib və gələn il üçün qarşıda duran vəzifələr barəsində fikirlərini bildirib.*

2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu iclas iştirakçılarının diqqətinə çatdıran Prezident neftin qiymətinin kəskin şəkildə düşməsinin neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərdiyini vurğulayıb. Eyni zamanda, dövlət başçısının sözlərinə görə, dünyada siyasi və hərbi böhran yaşanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar, müharibələr alovlanır, risklər, təhdidlər artır. Yaxın Şərqdə vəziyyət kritik həddə çatmışdır. Müşahidə olunan qarşıdurma çox böyük fəlakətə gətirib çıxara bilər. Görürük ki, vəziyyət getdikcə kəskinləşir. Avropanın miqrant böhranı sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur.

Azərbaycanın həmişə öz yolu ilə getdiyini, öz siyasətini apardığını diqqətə çatdıran ölkə rəhbəri qeyd edib ki, ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır.

"Belə bir beynəlxalq mənzərə fonunda Azərbaycan uğurla inkişaf edir. Biz mötəbər beynəlxalq tədbirlər keçiririk. Bu yaxınlarda V Bakı Beynəlxalq Humanitar Forumu öz işini yekunlaşdırdı. Forumda 80-ə yaxın ölkədən 400-dən çox tanınmış xadim iştirak etmişdir. Forumda bir daha bizim gördüyümüz işlər, xüsusilə multikulturalizmlə bağlı gördüyümüz işlər yüksək qiymətləndirildi. Bu il ölkəmizdə digər beynəlxalq tədbirlər də keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forumun Azərbaycanda keçirilməsi bu sahədə gördüyümüz işlərə dünya tərəfindən verilən böyük qiymət idi".

Dövlət başçısı, həmçinin, Azərbaycanda böyük idman yarışlarının - 500 milyon auditoriyası olan "Formula-1" yarışının, Ümumdünya Şahmat Olimpiadasının keçirildiyini bildirdi. "Bu il idmançılarımız da bizi çox sevindirib. Bizim komandamız Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanıb. Medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdəyik. Bax, bu rəqəmləri şərh etməyə heç bir ehtiyac yoxdur".

Böyük mötəbər tədbirlər arasında Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini Prezident İlham Əliyev xüsusilə qeyd etdi. "Bu, tarixi bir səfər idi və Roma Papası Bakıdan bütün dünyaya çox açıq mesajlar göndərdi. O cümlədən Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi".

Ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumun keçirilməsinə toxunan ölkə rəhbəri dedi ki, referendum demokratik, ədalətli, tam şəffaf şəkildə keçirilmişdir. Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır.

"Referendumun nəticələri bütün ölkəyə, bütün xalqımıza, dünyaya bunu bir daha əyani şəkildə təqdim etdi. Azərbaycan xalqı apardığımız siyasəti dəstəkləyir, bu dəstəyə sadiqdir və görür ki, bizim siyasətimizə alternativ siyasət yoxdur".

Bu il ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndiyini söyləyən Prezident İlham Əliyevin sözlərinə görə, bir çox beynəlxalq təşkilatlarda Azərbaycana bir daha dəstək nümayiş etdirilib. "Bu təşkilatlar arasında iki təşkilatı xüsusilə qeyd etmək istərdim. Biri İslam Əməkdaşlıq Təşkilatıdır ki, builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaratmışdır. Kontakt qrupu artıq öz işinə başlayır. Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu. Bu yaxınlarda Qoşulmama Hərəkatının - BMT-dən sonra ən çox üzvü olan bu təşkilatın Zirvə görüşündə də növbəti dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərar qəbul edildi. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur".

Bu meyillər digər təşkilatlarda da görünür. Bu yaxınlarda Avropa Parlamenti tərəfindən səslənən rəsmi bəyanat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli mövqe nümayiş etdirdi.

Əksər çıxışlarında olduğu kimi, dövlət başçısı Nazirlər Kabinetinin yekun iclasında da ölkəmiz üçün ən ağrılı məsələ olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlər də səsləndirdi. Aprelin əvvəllərində Azərbaycanın böyük hərbi qələbə əldə etdiyini bildirən Ali Baş Komandan bunu tariximizin şanlı səhifəsi adlandırdı. "Həmin döyüşlər zamanı Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik".


**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var

(Əvvəli 1-ci səhifədə)

Prezidentin sözlərinə görə, aprel döyüşlərindən sonra vasitəçilər bir qədər fəallaşdılar. "Bilirsiniz ki, may-iyun aylarında görüşlər keçirildi. Amma artıq biz oktyabr ayında yaşayırıq. Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır. Amma siz də, Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi. Ona görə bu məsələyə aydınlıq gətirilməlidir. Biz yaxşı bilirik ki, ikili standartlarla üzləşmişik və bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir. Çünki onlar dörd qətnamə qəbul ediblər. Bu qətnamələr 20 ildən çoxdur ki, icra edilmir. Heç olmasa öz qərarlarına hörmət etsinlər. Artıq biz yaxşı görürük ki, Ermənistan beynəlxalq hüququ necə pozur.



Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var. Sadəcə olaraq istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq".

Ölkəmizdə il ərzində baş verən iqtisadi proseslərə öz münasibətini bildirən dövlət başçısı vurğuladı ki, neftin qiyməti düşdü və bunun nəticəsində dövlət investisiyaları azaldı, tikinti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxardı. "Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir.

Sosial layihələr icra edilib. 29 məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri icra edilir, 154 min iş yeri yaradılıbdır, onlardan 121 mini daimi iş yeridir. Doqquz ayda 36 min iş yeri bağlanıbdır. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq - 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanıb. Bu, çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir".

Digər istiqamətlərdə də bütün işlərin plan üzrə getdiyini, Azərbaycanın çox önəmli nəqliyyat mərkəzinə çevrildiyini bildirən Prezident İlham Əliyev bütövlükdə 2016-cı ilin nəticələrini müsbət dəyərləndirdi və dedi: "Son illər ərzində 2016-cı il ölkə iqtisadiyyatı üçün ən çətin, ağır ildir. Ancaq qeyd etdiyim kimi, biz yenə də inkişaf yolu ilə gedirik və gedəcəyik".

**"Azərbaycan Ordusu"**

# Azərbaycan ilə Özbəkistan arasında hərbi əməkdaşlığın perspektivləri müzakirə edilib





*Özbəkistan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 5-də bu ölkənin Müdafiə naziri general-polkovnik Kabul Berdiyev ilə görüşüb.*

General-polkovnik Zakir Həsənov əvvəlcə xalqlarımız arasında çoxəsrlik dostluq ənənələrinin gücləndirilməsində və qarşılıqlı dəstəklənməsində əvəzsiz xidmətləri olmuş Prezident İslam Kərimovun vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verib.

Azərbaycan-Özbəkistan əməkdaşlığının möhkəm dostluq üzərində qurulduğunu və bu əlaqələrin daim genişləndiyini xüsusi qeyd edən nazir ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində əməkdaşlığın yüksək səviyyədə inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bölgədə təhlükəsizliyə və sabitliyə əsas təhdiddir. Bu münaqişə beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həll olunmalıdır. Münaqişə ilə bağlı mövcud status-kvo isə qəbuledilməzdir.

Nazir K.Berdiyev də öz növbəsində dövlətlərimizin əlaqələrinin möhkəm tarixi təmələ və mehriban qardaşlıq münasibətlərinə əsaslandığını, Özbəkistanın və Azərbaycanın vacib tərəfdaşlar olduqlarını vurğulayıb. Özbəkistan naziri ölkəsinin Azərbaycan ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini deyib.




Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın perspektivləri, o cümlədən təcrübə mübadiləsi və qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Rəsmi səfər çərçivəsində Müdafiə Nazirliyinin nümayəndə heyəti Özbəkistan Respublikası Silahlı Qüvvələrinin Akademiyası və Daşkənd Ali Ümumqoşun Komandirlər Məktəbini də ziyarət edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Gəncə Qarnizonunda “Heydər Əliyev və dövlət müstəqilliyimiz” mövzusunda “dəyirmi masa” keçirilib



*Azərbaycanın dövlət müstəqilliyinin 25 illik yubileyi ərəfəsində Gəncə Qarnizonunda "Heydər Əliyev və dövlət müstəqilliyimiz" mövzusunda tədbir keçirilib.*

Bir qrup hərbi qulluqçu Gəncə şəhərindəki Heydər Əliyev park-kompleksinə gələrək Ümummilli Liderimizin abidəsi önünə gül dəstələri qoyublar. Sonra hərbi qulluqçular Heydər Əliyev Mərkəzinin nəzdindəki muzeyin ekspozisiyası ilə tanış olublar.

Mərkəzin əməkdaşı Sevinc Əhmədova əsgər və zabitləri Ümummilli Liderimizin uşaqlıq və gənclik illəri, dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti, Azərbaycana rəhbərlik etdiyi illər, dövlət müstəqilliyimizin qorunması, ordu quruculuğunda, eləcə də qədim Gəncənin inkişafında müstəsna xidmətlərini əks etdirən foto, sənəd və digər eksponatlarla tanış edib.

Sonra "Heydər Əliyev və dövlət müstəqilliyimiz" mövzusunda "dəyirmi masa" öz işinə başlayıb.

Müdafiə Nazirliyinin zabiti, Prezidentin Fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani mövzu ilə bağlı ətraflı çıxış edərək bildirib ki, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra respublikamız uzun müddət SSRİ-nin tərkibində olsa da, xalqımız həmişə müstəqillik arzuları ilə yaşamışdır.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin ilk vaxtlarından başlayaraq həmişə ölkəmizin dövlət müstəqilliyini bərpa edəcəyinə inanmış və bu istiqamətdə heç kimin xəyalına gəlməyən tədbirlər görmüşdür. Təkcə onu xatırlamaq kifayətdir ki, ötən əsrin 70-ci illərində milli liderimizin yaratdığı indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey olmasaydı dövlət müstəqilliyimizin qarantı olan bugünkü güclü Silahlı Qüvvələrimiz haqqında danışmaq belə mümkün olmazdı.

Qeyd olunub ki, 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilməsinə baxmayaraq, həmin tarixi günə qovuşmağımızın təməlində məhz ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti dayanır.

Ulu öndər Heydər Əliyevə görə, Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir və müstəqilliyimiz daimidir, sarsılmazdır, əbədidir.

""Dəyirmi masa"da iştirak edən Gəncə Dövlət Universitetinin dosenti, tarix və siyasi elmlər üzrə fəlsəfə doktoru Etibar Musayev, Müdafiə Nazirliyinin zabiti polkovnik Nazim Əhmədov, Gəncə Dövlət Aqrar Universitetinin müəllimi Sevda Abdullayeva, polkovnik-leytenant Loğman Xanlarov, mayor İftixar Mehdiyev, kapitan Vüsal Sadıqov, leytenant Arif İsmayılov və başqaları respublikamızın tərəqqisində, iqtisadi, siyasi, mədəni uğurlarında, beynəlxalq əlaqələrin genişlənməsində, Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer almasında, ümumiyyətlə, dövlət müstəqilliyimizin möhkəmlənməsində, daimi və əbədi olmasında xalqımızın dahi oğlu Heydər Əliyevin müstəsna xidmətlərindən söhbət açıb, fikir və mülahizələrini bildiriblər.



Azərbaycanın Milli Qəhrəmanı şəhid Elbrus Allahverdiyevin qızı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sevinc Allahverdiyeva Azərbaycanın dövlət müstəqilliyinin qorunması, respublikamızın ərazi bütövlüyünün və suverenliyinin müdafiəsi uğrunda şəhid olanların ailə üzvlərinin daim diqqət və qayğı ilə əhatə olunması ənənəsinin də Heydər Əliyevlə başlandığını "dəyirmi masa" iştirakçılarının diqqətinə çatdırıb."Dəyirmi masa"nın sonunda səmimi qarşılanmaya görə Heydər Əliyev Mərkəzinin direktoru Könül Zeynalovaya və bütün əməkdaşlara Müdafiə Nazirliyi adından minnətdarlıq bildirilib.

Heydər Əliyev Mərkəzinə və qonaqlara kitab-albomlar hədiyyə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Azərbaycanın Dövlət Müstəqilliyi - 25*

# Müstəqilliyimiz əbədi və sarsılmazdır

*Dünyanın hər bir azadlıqsevər xalqının həyatında dövlət müstəqilliyi günü ən əlamətdar günlərdən biri sayılır. Xalqımız üçün belə bir tarixi gün 1991-ci ilin 18 oktyabr günüdür. 25 il öncə həmin gün ölkəmizdə Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib.*

İlk müstəqillik mərhələsi Azərbaycanın dövlət, siyasi və iqtisadi quruculuğunda müəyyən çətinliklərlə müşayiət olunsa da, 1993-cü ildə ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdan türk dünyasının sönməz günəşi ulu öndər Heydər Əliyev özü ilə bərabər Vətənimizə siyasi müdriklik gətirdi. Məhz onun zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, doğma Vətənə tükənməz sevgisi ilə Azərbaycan dövlət müstəqilliyinə yönəlmiş təhlükələrdən xilas oldu. Tez bir zamanda ölkədə xaos və anarxiya, siyasi və mənəvi-psixoloji gərginlik aradan qaldırıldı. Respublikamızı Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən ulu öndər Heydər Əliyev qısa zaman ərzində dövlət quruculuğu işlərinə başladı.



1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yaranmışdı. Orduda da vəziyyət çox ağır idi. Ermənilərin hərbi təcavüzü gündən-günə güclənirdi.

Ulu Öndərin təxirəsalınmaz tədbirlərinin nəticəsi kimi, ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qoruma-ğa qadir nizami Silahlı Qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı, Azərbaycanın qısa vaxtda əldə etdiyi hərbi üstünlük nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu.

Əsl müstəqillik öz sərvətlərinin tam sahibi olmaq deməkdir. 1994-cü il sentyabrın 20-də müdrik rəhbərin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq dünya qarşısında öz sərvətlərinin mütləq sahibi kimi çıxış etdi. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmlənməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Əgər Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə, onun müstəqilliyinin əbədiliyi və dönməzliyi ümummilli liderin fəaliyyəti ilə bağlı olan danılmaz faktdır.

Müstəqil Azərbaycanın qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz dahi rəhbər Heydər Əliyev yaratdı. Müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərləri birləşdirən yeni bir ideologiyanın əsasını Heydər Əliyev qoydu.

Ulu Öndərin xarici siyasət məsələlərinə mühüm əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məsələlər naminə ən nüfuzlu tribunalardan bacarıqla, məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli oldu. Görkəmli siyasi xadimin fəal diplomatiyası sayəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının zorla cəlb olunduğumuz silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. Ölkəmizin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edir.

Ümummilli liderimiz Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını bütün dünyaya sübut etdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir."

Ulu Öndərin zəngin irsi, ideyaları və tövsiyələri müasir cəmiyyətimizin ideya mənbəyidir. Müdrik rəhbərin tələtümlərdən, təhlükələrdən çıxararaq qurub-yaratdığı müstəqil Azərbaycan müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında yüksəliş dinamikası nümayiş etdirir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***6 oktyabr 2016-cı il.***

Oktyabrın 5-də axşam saatlarında qoşunların qarşıdurma xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən mövqelərimizin atəşə tutulması nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Məmmədov Sahil Sabir oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Bildiririk ki, qoşunların qarşıdurma xəttində baş verən növbəti qanlı təxribata görə məsuliyyət bütünlüklə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

***7 oktyabr 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan və Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Qaymaqlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Goranboy rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Vətən çağırarsa, yenidən döyüş səngərlərimizə qayıdacağıq”



*Silahlı Qüvvələrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" 9 sentyabr 2016-cı il tarixli sərəncamının icrası davam edir.*

Tərtər şəhərinin mərkəzindəki Heydər Əliyev meydanında "Vətənə nümunəvi xidmətə görə sağ ol!" devizi altında keçirilən tədbirdə yüzlərlə rayon sakini, veteran, ictimaiyyət nümayəndələri və məktəblilər cəbhə bölgəsində əsgəri borcunu şərəflə yerinə yetirərək ehtiyata buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından bir qrupunu təntənə ilə yola salıblar.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani tədbir iştirakçılarına Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini çatdıraraq Azərbaycan Silahlı Qüvvələrinin son illərdəki uğurlarından, aprel döyüşlərindəki qələbəmizdən, ordu ilə xalqın daha sıx birliyinin yaranmasından danışıb.

Qeyd olunub ki, mütəşəkkil ordunun yaranması əgər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdırsa, bu ordunun nəinki Cənubi Qafqazda, eləcə də dünyanın güclü orduları sırasında yer alması Ali Baş Komandanımız İlham Əliyevin adı ilə bağlıdır.

Son illərdə ordumuzun maddi-texniki bazası daha da təkmilləşdirilib, yeni silahlar, döyüş texnikaları, zenit-raket kompleksləri, artilleriya qurğuları, təyyarə və helikopterlər alınıb və eyni zamanda düşməni susdurmaq üçün həm silah-texnika, həm də şəxsi heyət sarıdan kifayət qədər qüvvəmiz vardır. Hər şeydən öncə, şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissinin yüksək olması və hamının bir amal uğrunda, bir bayraq altında birləşməsidir.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, bu gün yola salınan əsgər və çavuşların hamısı aprel döyüşlərinin iştirakçılarıdırlar və onlar doğmalarının yanına qalib kimi qayıdırlar.

Ehtiyata buraxılan hər bir əsgər haqqında məlumat verilib, döyüşlərdə göstərdikləri rəşadətlərindən söhbət açılıb. Sonra döyüş növbəsinin, qəhrəmanlıq estafetinin rəmzi təhvili mərasimi başlanıb.



Ehtiyata buraxılan əsgər Altay Vəliyev "Bu gün mən və mənimlə bir vaxtda müddətli həqiqi hərbi xidmətə çağırılan gənclər həyatımızın ən xoşbəxt günlərini yaşayırıq. Biz Vətən və xalq qarşısında müqəddəs əsgəri borcumuzu şərəf və vicdanla yerinə yetirərək doğmalarımızın yanına alnıaçıq, üzüağ dönürük. Ancaq Vətən çağırarsa, biz silaha sarılaraq yoluna-izinə yaxşı bələd olduğumuz, şəhidlərimizin qanı çilənmiş səngərlərimizə yenidən qayıdacaq, yenə də Vətənin sadiq əsgəri kimi xidmətimizi davam etdirəcəyik", - deyərək silahını, dəmir dəbilqəsini və zirehli gödəkçəsini onu əvəz edəcək gənc əsgərə təqdim edib.

Gənc əsgər Elmir Məmmədov silahdaşları adından özündən əvvəlki döyüşçülərin qəhrəmanlıq ənənələrini davam etdirəcəklərinə, Ali Baş Komandanımızın rəhbərliyi altında tezliklə Xankəndi, Şuşa, Laçın və işğal altında olan digər torpaqlarımızdan xalqımıza qələbə müjdəsi gətirəcəklərinə and içib.

Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov ehtiyata buraxılan əsgərlərə tərtərlilərin minnətdarlığını çatdırıb, onlara xatirə hədiyyələri təqdim edib və ordudan mülki həyata həm fiziki, həm də mənəvi cəhətdən mükəmməl, hazırlıqlı gənc kimi dönən igid oğullara uğurlar arzulayıb.

Tərtər məktəbliləri öz bağçalarında becərdikləri gül-çiçəklərdən dəstə tutaraq Vətən oğullarına yaxşı yol diləyiblər.

General-mayor Hikmət Həsənov xalqımızın bu gün yola salınan igidlərlə fəxr etdiyini bildirib. Belə vətənpərvər, qorxmaz, cəsarətli oğullar ordumuza bəxş etdikləri üçün onların valideynlərinə təşəkkür edib.

Ordu ilə xalqın birliyindən danışan general H.Həsənov diqqətə çatdırıb ki, tərtərlilər həmişə olduğu kimi, aprel döyüşlərində də Azərbaycan əsgərinə arxa-dayaq olmuş və qələbənin qazanılmasında səylərini əsirgəməmişlər. Yaşayış məntəqələri düşmən atəşlərinə məruz qalanda, mərmilər dolu kimi yağanda heç bir tərtərli od-ocağını tərk etməyib. Bu, əsl qəhrəmanlıqdır.

Daha sonra general şəhidlərin hörmət və ehtiramla ünvanlarına yola salınmasında göstərdiyi diqqətə görə şəxsən rayonun icra başçısına və bütün tərtərlilərə minnətdarlığını bildirib.

Ehtiyata buraxılan əsgərlərə hərbi biletlər, nümunəvi xidmətlərinə görə fəxri fərman, valideynlərinə təşəkkür məktubları təqdim edən birlik komadiri onları bir-bir bağrına basıb, yaxşı yol arzulayıb. Əminliklə qeyd edib ki, bu gün ehtiyata buraxılan gənclər əsgərlikdə olduqları kimi, arxa cəbhədə, ictimai həyatda da ümidləri doğruldacaq, xalqımıza, dövlətimizə layiqli övladlar olacaqlar.



Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi Tərtər rayon filialının sədri Suliddin Yusifov, Azərbaycan Bayrağı ordenli veteran döyüşçü Nizami Heydərov da Vətən qarşısında əsgəri borclarını yerinə yetirən oğullarla fəxr etdiklərini deyərək onlara uğurlar arzulayıblar.

Aprel döyüşlərinin iştirakçılarından olan gizir Raqif Qayıbov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Niyazi İsgəndərov da ehtiyata buraxılan gənclərlə bir yerdə strateji yüksəklikləri azad etdiklərini, erməni əsgərlərinin silah-sursatlarını ataraq necə qaçdıqlarını xatırlayıb və bu gün ehtiyata buraxılan döyüşçüləri əvəz edəcək əsgərlərə bu barədə daha geniş söhbət açaqlarını, onları nümunə göstərəcəklərini deyiblər.

Tədbirə toplaşanlar milli musiqimizin sədaları altında əsgərlərlə bir yerdə rəqs edib, onları böyük qələbəliklə doğma el-obalarına yola salıblar.

* * *

Goranboy rayonunda bir qrup müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun ehtiyata buraxılmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə bu qəsəbədə məskunlaşmış Xocalı rayonu ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, şəhid ailələrinin üzvləri və məktəbli gənclər iştirak ediblər.

Əvvəlcə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ehtiyata buraxılan hərbi qulluqçulara təbrik-müraciəti oxunub.

Polkovnik Valeh Rəcəbov mərasim iştirakçılarını komandanlıq adından salamlayaraq, Vətən qarşısında əsgəri borclarını şərəflə yerinə yetirən aprel döyüşlərinin iştirakçılarına uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani builki buraxılış mərasiminin əlamətdar bir gündə - dövlət müstəqilliyimizin 25 illik yubileyi ərəfəsində keçirildiyini xüsusi ilə qeyd edib və Silahlı Qüvvələrimizin hər bir döyüşçüsünə Vətən naminə xidmətlərində böyük nailiyyətlər qazanmağı diləyib.

(Ardı 5-ci səhifədə)

# "Vətən çağırarsa, yenidən döyüş səngərlərimizə qayıdacağıq"

(Əvvəli 4-cü səhifədə)



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Xocalı rayon şöbəsinin rəisi polkovnik-leytenant Bəxtiyar Məmmədov, "Azərbaycan Bayrağı" ordenli, Əməkdar həkim Məmməd Nağıyev, Mədəniyyət və Turizm şöbəsinin müdiri Göyüş Həsənov, rayon prokruroru, baş ədliyyə müşaviri Şıxəli Alməmmədov, Müdafiə Nazirliyinin zabiti polkovnik Nazim Əhmədov, polkovnik-leytenant Elnur Həsənov və başqaları ehtiyata buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına ən səmimi arzularını çatdıraraq mülki həyatda da Vətənə sədaqətlə xidmət edəcəklərinə əminliklərini bildiriblər.

Üç qardaşı və atası Xocalıda şəhid olmuş Xumar Səlimovanın çıxışı tədbir iştirakçılarına kövrək anlar yaşadıb.

"Qardaşlarım Araz, Fəxrəddin, Mikayıl və atam Bahadur erməni qaniçənləri ilə qeyri-bərabər döyüşlərdə şəhid oldublar. Qardaşım Araz Səlimov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Sinəmizə Xocalı boyda böyük bir dağ çəkilib. Çətin ki, biz bu dağları unudaq. Ancaq aprel döyüşlərində Azərbaycan əsgəri elə bir şücaət göstərdi ki, qismən olsa da dərdimizi, kədərimizi unutduq. Biz xocalılar da inanırıq ki, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında, milli ordumuzun güc və qüdrəti ilə digər əzəli torpaqlarımız da işğaldan azad ediləcək. Xocalımızın yaraları da onda sağalacaq. Mən bu gün ağlayaraq, sızlayaraq, göz yaşları axıdaraq danışmaq istəmirəm. Çünki üç qardaş və ata, neçə-neçə qohum-əqrəba, Xocalı kimi bir cənnətməkan yurd itirsəm də, bu gün başımı uca tutaraq fəxrlə sizin qarşınızda dayanmışam. Mənim bu gün Silahlı Qüvvələrimizdə düşməndən intiqam alacaq yüzlərlə, minlərlə sizin kimi igid qardaşım var və inanıram ki, onlar aprel döyüşlərində olduğu kimi, tezliklə böyük qələbənin də sevincini xalqımıza yaşadacaqlar", - deyən Xumar xanım Azərbaycan Prezidentinə inandığını, Vətən əsgərlərinə güvəndiyini bir daha vurğulayıb.

Cəbhə bölgəsində döyüş növbəsinin təhvili rəmzi olaraq aprel döyüşlərinin qəhrəmanlarına həsr olunmuş "Bayraqtəpə qartalları" vətənpərvərlik mahnısının sədaları altında ehtiyata buraxılan müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Röyal Əhmədov öz silahını, dəmir dəbilqə və zirehli gödəkçəsini gənc əsgər Kazım Səlimzadəyə təhvil verib.



Ehtiyata buraxılan aprel döyüşlərinin iştirakçılarına alqışlar altında hərbi bilet, nümunəvi xidmətlərinə görə fəxri fərman, valideynlərinə ünvanlanan təşəkkür məktubları təqdim edilib.

Xocalı şəhər 4 saylı tam orta məktəbinin şagirdləri - gələcəyin əsgərləri olacaq məktəbli gənclər ehtiyata buraxılan döyüşçüləri gül-çiçək və alqışlarla yola salıblar.

* * *

Şəmkir rayonundakı "N" hərbi hissəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması ilə əlaqədar təntənəli mərasim keçirilib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət edilərək qarşısına gül dəstələri düzülüb. Ulu Öndərin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

General-mayor Xəqani Cəbrayılov tədbir iştirakçılarını salamlayaraq hərbi xidmətini başa vuran oğullara minnətdarlığını bildirib. General qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, artıq bir neçə gündür müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyata buraxılması prosesi uğurla davam etdirilir.

Ehtiyata buraxılan əsgərlərin sıralarında Silahlı Qüvvələrimizin salnaməsinə dördgünlük savaş kimi düşmüş aprel döyüşlərinin də iştirakçıları var. Onlar öz doğmalarının görüşünə qalib kimi qayıdırlar və bu hər kəsə qismət olmayan bir xoşbəxtlikdir.

General-mayor X.Cəbrayılov ulu öndər Heydər Əliyevin "Hər bir gənc ailəsindən, atasının tutduğu vəzifədən, yaxud da maddi vəziyyətindən asılı olmayaraq Azərbaycan milli ordusunda xidmət etməlidir. Milli ordumuzda xidmət etmək hər bir Azərbaycan vətəndaşının şərəfli borcu olmalıdır", - sözlərini xatırladaraq, bu gün təntənə ilə yola salınan Vətən oğullarının öz şərəfli borclarını layiqincə yerinə yetirdiklərini görə məhz böyük hörmətə layiq olduqlarını qeyd edib.

Xidmətini şərəflə başa vuran hərbi qulluqçulara Vətənə nümunəvi xidmət etdiklərinə, onların valideynlərinə isə vətənpərvər, layiqli əsgər yetirdiklərinə görə bir daha təşəkkür edən hərbi hissə komandiri böyük əminliklə bildirib ki, ehtiyata buraxılan döyüşçülərin davamçıları olacaq gənc əsgərlər xidmət keçmiş hərbi qulluqçuların ənənələrini davam etdirərək Silahlı Qüvvələrimizin salnaməsinə yeni-yeni parlaq səhifələr yazacaq və Vətənin qalib əsgəri kimi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılacaqlar.

Polkovnik Abdulla Qurbani vaxtilə bu hərbi hissədə xidmət etdiyi vaxtları xatırlayıb. Bu, o vaxtlar idi ki, xidmət üçün heç bir şərait yox, ərzaq, geyim təminatı son dərəcə aşağı səviyyədə, döyüşçülərin peşəkarlığı zəif, arxa cəbhədə isə qarşıdurmalar, dövlət çevrilişi cəhdləri xalqı və ölkəmizin müqəddəratını təhlükədə qoymuşdu. Lakin bu gün respublikamızda əmin-amanlıq, sabitlik hökm sürür, ordumuz daha da qüdrətlənir və bu hərbi hissədə də ən müasir xidmət şəraiti yaradılıb, maddi-texniki təminat, silahlanma, şəxsi heyətin isə döyüş ruhu, mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir.



Polkovnik böyük iftixarla bildirib ki, artıq bir mərkəzdən idarə olunan, vahid komandanlığa tabe, Ali Baş Komandanın əmrlərinə hər an hazır olan mütəşəkkil ordumuz vardır və o, qarşıya qoyulmuş istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir.

Tədbir iştirakçılarının nəzərinə çatdırılıb ki, bu gün gənclər böyük həvəslə əsgərliyə gəlir və onlardan çoxu ehtiyata buraxıldıqdan sonra belə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətlərini davam etdirir, gənclər hərbi peşələrə həvəslə yiyələnirlər.

Şəmkir rayon İcra Hakimiyyəti başçısının birinci müavini Qüdrət Əliyev çıxış edərək Murov, Daşkəsən, Gədəbəy dağlarında, Qazax və Tovuzun müdafiəsində mətin dayanaraq düşmənin silahlı təxribatlarının qarşısını mərdliklə alan Vətən oğullarına bütün şəmkirlilər adından xidmətlərini uğurla başa vurduqlarına görə minnətdarlıqlarını bildirib.

Döyüş növbəsinin rəmzi təhvil və qəbulu mərasimi tədbir iştirakçılarının alqışları və vətənpərvərlik mahnılarının sədaları altında icra olunub.

Gəncə Dövlət Dram Teatrının aparıcı aktyoru, respublikanın Xalq artisti Alim Məmmədov Nizami Gəncəvinin, Səməd Vurğunun ölməz misraları ilə ehtiyata buraxılan oğullara uğurlar arzulayıb.

Bütün tədbir iştirakçıları Xalq artistinə qoşularaq S.Vurğunun "Azərbaycan" şeirini birlikdə söyləyiblər.

Vətən qarşısında öz övladlıq borclarını şərəflə yerinə yetirən əsgərlərimizə Silahlı Qüvvələrimizdə nümunəvi xidmətlərinə görə fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olunub, ailələrinə isə təşəkkür məktubları ünvanlanıb.

Onlar "Vətən" marşının sədaları altında, alqışlarla, gül çiçəklə "Vətən çağırarsa, biz yenidən döyüş səngərlərimizə qayıdacaq, yenə də Vətənin sadiq əsgərləri olacağıq!" sədaları altında hərbi hissələrindən evlərinə yola düşüblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

Suallar:

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.
2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.
3. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

### *Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi.

1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdilər.

Rusiyada 1917-ci il oktyabr silahlı üsyanından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk günlərdən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

### *Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş Seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumətinin təşkil edilməsi Fətəli xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi. İlk hökumətin tərkibində hərbi nazir vəzifəsi də nəzərdə tutulmuş və bu vəzifə Xosrov bəy Sultanova həvalə olunmuşdu.

Mayın 30-da Azərbaycanın müstəqilliyini elan etməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumda Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Osmanlı dövləti (hərbi nazir Ənvər Paşa) Azərbaycana 2 mln. türk lirəsi ayırdı.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura müvəqqəti hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyilə ikinci hökumət təşkil edildi. İkinci hökumətin tərkibində hərbi nazir vəzifəsi yox idi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan, əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək, Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı üzərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı dövlətinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci il 30 oktyabr tarixli Mudros müqaviləsinə görə, məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya gəlməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi.

Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı.

Hökumətin Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzalandı. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Nazirlər Şurasının qərarına uyğun olaraq 1918-ci il noyabrın 7-də Hərbi Nazirlik təsis edildi. 1920-ci ilin yanvarına artıq 30 min nəfər piyada və 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanıldı. 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin əsası qoyuldu. Orta məktəblərin milliləşdirilməsi işinə başlandı.

### *Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində*

SSRİ-nin süqutundan sonra beynəlxalq aləmə tam müstəqil bir faktor kimi inteqrasiya etməyə başlayan gənc dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Ölkəmizin olduqca əlverişli geosiyasi məkanda, həm də dünyanın super güclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiqini tələb edirdi.

Qeyd edək ki, o dövrdə ölkəmizin müasir beynəlxalq münasibətlərin önəmli iştirakçısına çevrilməsi prosesi olduqca gərgin olub. Məhz ümummilli lider Heydər Əliyevin böyük səyi, müdrikliyi sayəsində Azərbaycan beynəlxalq ictimaiyyətlə uğurlu ünsiyyət quraraq, milli maraqlarının təmin edilməsində əhəmiyyətli addımlar ata bildi.

Müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunun araşdırılması üçün ölkəmizin beynəlxalq aləmlə ilkin əlaqələr qurduğu şəraitə nəzər salmalıyıq. Çünki müasir Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu iştirakçısına çevrilməsi prosesində rastlaşdığı problemlər Cümhuriyyət dövründəki (1918-1920-ci illər), erməni şovinistlərinin "Böyük Ermənistan" yaratmaq xülyası da daxil olmaqla, analoji proseslərin davamı idi. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəaliyyətə başlamasının əsası İstanbul konfransında (1918-ci il) qoyulub. Lakin 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini dünya ictimaiyyətinin qəbul etməsi prosesi həm də şimal, cənub, qərbdən ölkənin milli təhlükəsizliyinə qarşı ciddi təhdidlərlə müşayiət edilirdi. Gənc respublikanın dövlətlərarası münasibətlərə daxil olması olduqca çətin idi. Burada ən böyük problemlərdən biri də maddi resursların, demək olar ki, yoxluğu idi. Belə bir vəziyyətdə alternativ kimi Azərbaycanla Avropa dövlətləri arasında vasitəçiliyi Türkiyənin Avropa ölkələrindəki səfirlikləri yerinə yetirirdi.

1993-cü ildən başlayaraq, yeni ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli maraqların təmin olunmasına, beynəlxalq aləmlə sıx inteqrasiyaya istiqamətlənən xarici siyasi strategiya formalaşmağa başladı. Balanslaşdırılan siyasətə söykənən bu strategiya Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun təşəkkül tapmasına xidmət edirdi. Özünün ilk andiçmə mərasimində (1993-cü il, 10 oktyabr) həmin məqama da toxunan ümummilli lider Heydər Əliyev deyib: "...Bizim xarici siyasətimiz, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrlə Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətməkdən ibarətdir."

Lakin həmin dövrün siyasi reallıqları fonunda buna birdən-birə nail olmaq qeyri-mümkün idi. İlk olaraq beynəlxalq ictimaiyyəti Azərbaycan Respublikası ilə qarşılıqlı əməkdaşlığa sövq etməli və onları bu əlaqələrin faydalı olacağına inandırmaq lazım idi. Yalnız bundan sonra milli maraqlarımızı regionda maraqları toqquşan dövlətlərin mənafeləri ilə uzlaşdırmaq, təhlükəsizliyimizə beynəlxalq təminat almaq üçün addımlar ataraq müsbət nəticələr əldə etmək olardı. Həmin səbəbdən ümummilli lider Heydər Əliyev konkret dövlətlərin regionda hansı maraqlara malik olması və bu maraqların onlar üçün hansı səviyyədə əhəmiyyətli olmasını dərindən təhlil etdi. Məhz bu cür yanaşmadan çıxış edərək, ilk növbədə, Rusiya ilə sıx əlaqələr quruldu. Rusiya ilə səmərəli əməkdaşlığın yaradılması üçün MDB-yə üzv olmaq əhəmiyyətli idi. Bu yalnız Rusiya yox, həmçinin digər postsovet respublikaları ilə də pozulmuş münasibətlərin bərpası üçün yeni imkanlar yaratdı.

Azərbaycan Respublikasının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır.

Ölkəmizi dünya birliyinə təqdim edən ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin düşünülmüş strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regional lider dövlətinə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Səngərdən əbədiyyətə



*Oktyabrın 5-də axşam saatlarında təmas xəttində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən mövqelərimizin atəşə tutulması nəticəsində şəhid olmuş Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Sahil Sabir oğlu Məmmədov doğulduğu Bərdə rayonunun Soğanverdilər kəndində böyük izdihamın iştirakı ilə son mənzilə uğurlanıb.*

Şəhidlə vida mərasimində Müdafiə Nazirliyinin rəsmiləri, şəhidin xidmət etdiyi hərbi hissənin əsgər və zabitləri, Bərdə rayon İcra Hakimiyyətinin rəhbərliyi və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Matəm mitiniqini açan polkovnik Abdulla Qurbani Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verib və səbr diləyib. Qeyd olunub ki, Sahil Məmmədov on ay idi Silahlı Qüvvələrdə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu idi. Şəxsi heyət arasında nümunəvi əsgər kimi tanınırdı.

Uzun illərdən sonra xalqımıza qələbə sevinci yaşadan aprel döyüşlərinin iştirakçısı idi. Hələ sağlığında öz qisasını almış, Lələtəpə uğrunda gedən döyüşlərdə döyüşçü dostları ilə birlikdə şəxsi rəşadət nümunəsi göstərmişdi. Onun əziz xatirəsi silah yoldaşlarının da yaddaşlarından silinməyəcəkdir.

Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bu ağrılı, üzüntülü, ancaq şərəfli gündə şəhidin valideynlərinin dərdinə bütün bərdəlilərin şərik olduqlarını, bu ağır itkidən sonsuz kədər hissi keçirdiklərini deyib.



İcra başçısı bütün xalqımız kimi bərdəlilərin də işğal altında olan torpaqlarımızın düşmən işğalından azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bildirib.

Kənd ağsaqqalları adından çıxış edən Əli Məmmədov dəfn mərasiminin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Müdafiə Nazirliyinə və Bərdə rayon İcra Hakimiyyətinin rəhbərliklərinə Soğanverdilər kənd sakinləri adından dərin minnətdarlığını bildirib.

Cəbhə bölgəsindən gələn polkovnik Elçin Kərimov, aprel döyüşlərində göstərdiyi şəxsi rəşadətə görə Azərbaycan Prezidentinin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuş polkovnik-leytenant Seymur Həbibullahov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rövşən Rəhimov və başqaları şəhidin qanının yerdə qalmayacağına and içiblər.

Şəhid Sahil Məmmədov əsgəri etiramla, yaylım atəşi altında son mənzilə yola salınıb.

Şəhidin cənazəsi üzərinə sərilmiş Dövlət bayrağı əbədi xatirə kimi ailəsinə təqdim edilib.

**"Azərbaycan Ordusu"**

---

*Əsgərin kitabxanası*

# "Mən yanmasam, sən yanmasan..."

*"Səni sevirəm, xalqım!.." Bu kəlmələri neçə onillər əvvəl Eynəlibəy Sultanov deyib. Bu kəlmələr qvardiya polkovniki Yusif Abdullayevin də könül sultanı olub. Bu kəlmələr Abdulla Qurbaninin də könlünü təlləndirib. Bu kəlmələr mənim də ürəyimi titrədir...*

Oxucu ürəyinə yol tapa bilən, oxucunun düşüncələrinə hopan kitabı söz məbədi bilirik. Nədən, necə yazılma amili var; sərraf oxucu, duyğusal oxucu fikrin ifadə çalarlarını yaxşı ayırd eləyir. Sözü yaşada-yaşada söz ömrü yaşayanların əsərləri həmişə oxucunun sirdaşı olub. Zamanında oxuduğum, Murovun o üzündə şəhid olanlarımıza epitafiya, elegiya bildiyim "Ana, Murovdan gəlirəm" kitabı kimi, qətlə yetirilən meşəlilərin ömrünün söz davamı bildiyim "Meşəli od içində" kitabı kimi, Naxçıvanın tarixinin bir dönəmini sözün ucalığında yaşadan "Gəzdim Naxçıvanı mən qarış-qarış" kitabı kimi,... Mənim də ruhumun can ortağı olan bu kitablar şair-publisist polkovnik Abdulla Qurbaninin kitablarıdı...

Abdulla Qurbaninin "Dəmirçi oğlunun taleyi" sənədli povesti hərbi təxəyyülü, səriştəsi, vətənsevərliyi,... tarixə bac verməyən bir tale haqqında nəsrlə yazılmış nəğmə misallıdı; fakt və hadisə zənginliyi, zəngin fakt və hadisələrin bədii sintezi, müəllifin keçmişə zaman sərhədini aşaraq hadisələrin iştirakçısına çevrilməsi (oxucunu da bu ovqatla yaşatması!) əsərin bədii (həm də tarixi!) dəyəridir, şübhəsiz. Bu dəyər həm də biri digərini tamamlayan, biri digərinin başlanğıcı ***(bəlkə də səbəbi - R.H.)*** olan hadisələrin mahiyyətindədi. Sərkərdə xarakteri haqqında təəssürat yaratma gücündə olan bu hadisələri tarixdən ədəbiyyata gətirmək (həm də bədii çalarlarıyla gətirmək!) ədəbi uğur hesab edilməlidir. "Dəmirçi oğlunun taleyi" sənədli povestində tədqiqatçılıq meyilləri də diqqəti çəkir; Abdulla Qurbani bu və ya digər mətləbi istər sənədlərə, istərsə də şahidlərin dediklərinə istinadən verib. Sənədli nəsrin tələblərinə müvafiq olaraq.

Bədii ədəbiyyat üçün material olan tarix həm də ədəbiyyat vasitəsilə yaşadılır. Bu baxımdan "Dəmirçi oğlunun taleyi" sənədli povesti tarix haqqında bədii əsər kimi oxu-nur, düşündürür, yadda qalır; yaşadılmalını yaşatmaq qüdrəti var bu sənədli povestdə...

"Ordu qərargahlarında kəşfiyyat və əməliyyat bölmələrinə rəhbərlik etmiş, korpus qərargahının rəisi olmuş, döyüşən atıcı diviziyalara komandirlik etmiş, mənsub olduğu xalqa həmişə başucalığı gətirmiş" (A.Qurbani) şöhrətli bir polkovnikin taleyi ***(ömür yolu - R.H.)*** hamımıza bəllidimi? - yox, bəlli deyil. Müəllif necə var, elə tanıtma missiyasının icraçısı olub. Əsərin əsas qayəsi məhz bu amillə bağlıdı. Abdulla Qurbani xalq şairi S.Rüstəmxanlıya istinadən "...Gələcək keçmişin şagirdidir və müəllimini nə qədər yaxşı dərk etsə, o qədər güclüdür" - kəlamını əsərin bədii dərkinə epitet kimi verib. Əsərə belə bədii münasibət çağdaş ədəbiyyatımıza çox gərəklidi.

Əsərin adı oxucuya səmimiyyətlə deyir ki, tarixə məlum, çoxumuza naməlum faktlar oxuyacaqsan, tarixə məlum, çoxumuza naməlum hadisələrin cazibəsinə düşəcəksən, bu naməlumluqlar səni məlum, işıqlı bir talenin cığırdaşı edəcək. O tale igid kəşfiyyatçı, qvardiya polkovniki, böyük tarixi şəxsiyyət Heydər Əliyevin "qəhrəman kimi dəyərləndirdiyi böyük sərkərdənin" (Abdulla Qurbani) - saygılarla əhatələnən Yusif Abdullayevin taleyidir!..




Polkovnik Yusif Abdullayev yaddaşında böyük tarixi dəyərə malik olan hadisələri də yaşadırmış. İlk baxışda adi görünsə də, qeyri-adi olan bir məqamı qürurumuzun tarixi kimi oxuyursan. Abdulla Qurbani taleyinə söz işığı saldığı Dəmirçi oğlunun Orta Asiya Hərbi dairəsində xidmət elədiyi illərdə xüsusi şöbəyə dəvət edildiyini, onun polkovnik Petrova dediklərini də xatırladır. Bu hadisə, bu mükalimləşmə - Yusif Abdullayevin rəisi, sonralar komandiri olmuş böyük sərkərdəmiz Cəmşid Naxçıvanskini müdafiə etməsi, nəticə etibarilə polkovnik İvanovu inandırması bu talenin o ağır məqamda da azərbaycançılığa söykəndiyinin təsdiqidir. Belə bir fakt, təbii ki, bədii sözün gücünə vaqif olan Abdulla Qurbaninin diqqətindən yayınmazdı.

Zaman anlamında dünənə bu günün gözüylə baxanda daha əhatəli, daha məzmunlu, çoxçalarlı görünür. "Dəmirçi oğlunun taleyi" sənədli povesti məhz dünənə belə bir münasibətin söz təsdiqidir; Abdulla Qurbani olmuşların sırasından bədii təqdimata elələrini cəlb edir ki, onlar mahiyyət etibarilə xalqın məfkurə sərvətinin hissəsi olsun, dövlətə, dövlətçiliyə sədaqət timsalı kimi dəyərləndirilə bilsin.

Böyük sərkərdəmiz Cəmşid Naxçıvanski güllələnib. Xüsusi şöbənin rəisi polkovnik İvanov gənc zabit Yusif Abdullayevin düşüncələrini, o böyük sərkərdəyə sevgisini paralamaq, Cəmşid Naxçıvanskinin Vətən xaini olduğuna inandırmaq istəyir. Yaxşı tanıdığı, ürəyinə yaxından bələd olduğu bir hərbçinin ünvanına deyilənləri inkar edən Yusif Abdullayev o ağır, o çətin məqamda da erudisiyası, geniş dünyaduyumu, tariximizə bələdliyi hesabına Aramyanın timsalında ermənilıyin nə olduğunu təsdiqləməyə nail olur; ***"...XV əsrdə Azərbaycanda Şah İsmayıl Xətai adında görkəmli bir sərkərdə olub. O vaxtlar Çuxursədd adlandırılan həmin yerlərin də hakimi imiş. Bir gün Şah İsmayıl vəziri Rəvanqulu xan Ustaclıya əmr edir ki, Çuxursəddə bir qala ucaltsın. Rəvanqulu xanın azərbaycanlı ustalara yeddi ilə tikdirdiyi bu qala el arasında Rəvan qalası adlandırılır. Azərbaycanlılar o qala ilə Rəvan - İrəvan şəhərinin əsasını qoyurlar..."*** (müəllifin bu faktı ədəbiyyata gətirməklə yüksək rütbəli bir zabitin düşüncələrini xalqının xeyrinə dəyişməyə qadir olan gənc zabitə ehtiramını dəyərləndirmək də ədəbiyyatın borcudur və bu borcu mən icra edirəm...). Bu, təkcə tarixə bələdliyin deyil, həm də tarixə sevginin təzahürüdür. Bu, əsərdə tarixi fakta ədəbi münasibətin (bədii təxəyyülün) təntənəsi kimi verilib.

Kəlmə (söz) düzümü kəlam deyil...

Kəlam müəyyən ideyanın təsdiqinə söykənən, düşündürücü, duyğusal formatda deyilən fikirdi, həm də təkcə ürəyə deyil, həm də düşüncələrə hesablanır. Zamanında Eynəlibəy Sultanovun dediyi ***"Səni sevirəm, xalqım! Bütün məramımla, bütün qəlbimlə sevirəm. Səni bəşəriyyətin böyük ailəsinin üzvü kimi sevirəm. Səni sevərkən həyatını müşahidə edir, sənin övladlarını öyrənir, dost-düşmənlərini ayırd edirəm. Mən sənin məhəbbətindən ilham alıram"*** kəlmələri kimi. Bu kəlamlar Yusif Abdullayev kimi sərkərdənin, dövlət xadiminin yaddaşında yaşamalıydı. 1971-ci ilin noyabrında C.Naxçıvanski adına hərbi məktəbdə çıxışını bu kəlamlarla başlamışdı. O kəlamlar, əslində, sərkərdənin ürəyindən süzülən mətləbə açar idi və bu məqam Abdulla Qurbaninin təqdimatında olduqca təsirli verilib. Sənədli nəsrin qüdrəti məhz budur! "Dəmirçi oğlunun taleyi" sənədli povestinin tarixi, tarixi-bədii dəyəri məhz belə məqamlarla müəyyənləşdirilməlidi...

Sənədli povesti oxuduqca müəllif təhkiyəsində aydınlığıla hiss edilən ehtirama şərik olursan. Dəmirçi oğlunun taleyini duyumlu, duyğusal oxucu üçün yaşam, ömür düsturu bilmək suç deyil - müəllifin əsərdə bu tərkibdə yazılmayan, hiss edilən, duyulan qənaəti belədi...

...Ön sözdə deyilən fikir əsərin məfkurəvi nəticəsidi; ölümdən sonra da yaşamaq olar. Xalq üçün, dövlət üçün yaşanılmış illər yaşadır onu. Xatirələrdə və tarixdə...

..."Dəmirçi oğlunun taleyi" sənədli povesti ölümdən sonrakı həyat haqqında nəsrlə yazılmış nəğmədi sanki...

...Nazim Hikmətin misraları düşür yadıma: "Mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə çıxar qaranlıqlar aydınlığa?.."...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

### Asudə vaxt

# "Kursantlar kitabxanaya həvəslə gəlirlər"





*Biliklərimizi daim artırmaq üçün həmişə üz tutduğumuz bir ünvan var - kitabxana. Etiraf edək ki, həyatda az-çox öyrəndiklərimizə görə kitablara borcluyuq. Psixoloqların gəldiyi qənaətə görə, mütaliə insanın əsəblərini sakitləşdirən ən yaxşı vasitələrdən biridir. Əsərləri oxuduqca özümüzü müsbət obrazlara bənzətməyə çalışdığımız, onlardan nümunə götürməyə cəhd etdiyimiz məqamlar da olub.*

Hər dəfə yolum kitabxanaya düşəndə burada çalışanlara həsəd aparıram. Çünki onların ömürləri kitabların arasında keçir. Daim mütaliə edir, vaxtlı-vaxtında yeni çap olunmuş əsərlərdən xəbər tuta bilirlər. Kitabxanaçıların üzərinə həm də məsuliyyətli vəzifələr düşür. Onlar çoxsaylı oxucuları vaxtlı-vaxtında istədikləri, sifariş etdikləri kitablarla təmin etməlidirlər. İlk baxışda adi görünən bu iş elə də asan deyil. Bunun üçün müvafiq qeydlər aparmalı, sifariş olunan ədəbiyyatı az bir vaxtda axtarıb tapmalısan. Kitab bolluğunda yaşadığımız indiki zamanda isə bu işin məsuliyyəti daha da artıb, desək, yəqin ki, yanılmarıq.

Söz yox ki, kitabxanaçı peşəkar olanda işinin öhdəsindən bacarıqla gəlir, sifarişləri tez yerinə yetirir. Oxucu sevgisi, oxucu məhəbbəti qazanır. Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kitabxanasında gördüklərimizdən, eşitdiklərimizdən üreyimiz açıldı. Kitabxanada səliqə-sahman və təmizliyin şahidi olduq. Kitabların səliqə ilə yığıldığı rəflər və dolablar göz oxşayır. Kitabxananın müdiri Zenfira İsmayılova gördükləri işlərdən qısaca söz açdı:

- Biz kitabxanada bütün işlərimizi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 31 mart 2014-cü il tarixli "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin kitabxanaları haqqında Əsasnamə"nin tələblərinə uyğun qururuq. İyirmi ildən artıqdır Hərbi Liseyin kitabxanasına rəhbərlik edirəm. Bu günün kursantlarına, sabahın zabitlərinə mədəni xidmət etməkdən qürur duyuram. Hələ dərslər başlamamış Təhsil Nazirliyindən alınan kitablar bölüklərə paylanılıb. Bir qayda olaraq, hər il kursantlar dərs vəsaitləri ilə tam təmin olunurlar. Hərbi Liseyin rəhbərliyi bu sahəni də daim diqqət mərkəzində saxlayır.

Kitabxanamızın fondu zəngindir. Bu yaxınlarda yeni kitabların alınacağı da gözlənilir. Bunlar əsasən siyasi, bədii və hərbi ədəbiyyat olacaq. Kursantlar asudə vaxtlarında bura gələrək dərsliklərlə yanaşı, bədii ədəbiyyat oxuyub dünyagörüşlərini artırırlar. Görkəmli ədəbiyyat nəzəriyyəçisi Frensis Bekan kitablara yüksək qiymət verərək yazırdı: "Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəsilə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir." Çox sevinirəm ki, Hərbi Liseyin zabitləri və kursantları bu "fikir gəmilərindən" yetərincə bəhrələnirlər.

Kursantların bilik və dünyagörüşlərinin daha da artırılması məqsədilə müntəzəm olaraq kitabxanada görkəmli hərb xadimləri Cəmşid Naxçıvanski, Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov və başqa sərkərdələrin həyat və döyüş yollarından bəhs edən foto-stendlər düzəldirik. Əsas məqsədimiz odur ki, gələcək zabitlərimizin vətənpərvərlik hissləri güclü olsun.

Zenfira xanım söhbətinə davam edərək oxuculara mədəni xidmət göstərən kitabxanaçıların əməyindən də söz açdı. Bildirdi ki, Gülarə Hüseynova, Gülnarə Məmmədova, Şölə Həsənova və başqaları öz vəzifə borclarına məsuliyyətlə yanaşırlar. Onlar kursantların sifarişlərinə diqqətlə yanaşır, sabahımızın zabitlərinə xidmət etməkdən məmnunluq duyurlar.

Söhbət zamanı onu da öyrəndim ki, Zenfira xanımın iki övladı hərbçidir. İlham və Vüsal Silahlı Qüvvələrimizin sıralarında xidmət edir, torpaqlarımızın müdafiəsində dayanıblar.

Kitabxanadan xoş təəssüratlarla ayrıldıq. Deyilənə görə, böyük sərkərdə Makedoniyalı İsgəndər döyüşçülərinə özləri ilə arzaqla yanaşı, oxumağa kitab da götürməyi əmr edərmiş. Qoy bizim də kursantların çantasında həmişə kitab olsun...

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Hərbi yeniliklər, ənənələr

### Müasir "Strij" tapançası



Yeni "Strij" tapançası Makarov tapançasını əvəz etmək üçün nəzərdə tutulub. Bu silah bir çox xarici istehsallı silahlardan daha çox üstünlük təşkil edəcək. "Strij" tapançası Rusiyanın "Arsenal firearms" şirkəti tərəfindən istehsal edilib. Maqazini 17 patrondan ibarətdir və 9 mm kalibrli güllələrdən istifadə edilir. Onun bazalı variantını 30 güllə tutan hücum variantı ilə də əvəz etmək olar. Silahın üzərində səsbatırıcı da quraşdırmaq mümkündür. Rusiya bazarı üçün "Strij" silahı 9 mm kalibrli (9x19, 7H21 və 7H31) güllələri altında, qərb bazarı üçün 9x19, 9x21 mm, 357 siq. kalibrləri altında buraxılır. Silah tam 890 qrama qədər çəkisi olan metal korpusdan, həm də 750 qaramlıq polimerdən istifadə edilməklə buraxılır. Silah xüsusi təyinatlı döyüşçülərlə qarşılıqlı olaraq buraxılır. Maqazinin təpməsi üçün tutacağın müxtəlif tərəfində düyməcikdən, ənənəvi sxem üzrə isə başqa bir basma düymədən istifadə edilir. Tapança fənər və hədəfgöstərici ilə komplektləşdirilə bilər. Silahın lüləsini uzatmaqla tapança öz formasını dəyişərək tapança-pulemyota çevrilir.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 5-də Goranboy rayonunun Gülüstan kəndi yaxınlığında Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşik və onun səhra köməkçiləri Xristo Xristov və Piter Şvedberq keçiriblər.

# "Ermənistan-Azərbaycan münaqişəsinin həlli Aİ-nin yaxın qonşuluğunda sabitliyə töhfə verəcək"

Belçikada səfərdə olan Azərbaycan Milli Məclisinin deputatları Rövşən Rzayev və Fuad Muradov oktyabrın 5-də bu ölkənin federal parlamentində xarici əlaqələr komissiyasının üzvlərinin iştirakı ilə təşkil olunan dinləmələrdə iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dinləmələrdə çıxış edən R.Rzayev Azərbaycanın keçdiyi inkişaf yolundan danışıb və ölkəmizin əsas probleminin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olduğunu vurğulayıb. O, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonunun Ermənistan tərəfindən işğal edilməsi nəticəsində 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrildiyini bildirib. Avropanın bu gün üzləşdiyi qaçqın probleminin Azərbaycan üçün 1990-cı illərin əvvəllərindən başladığını xatırladıb. Münaqişənin həlli prosesi barədə danışan deputat status-kvonun saxlanılmasının qeyri-mümkünlüyünü və regionun gələcəyi baxımından ciddi risklər doğura biləcəyini, Ermənistanın təxribatçı əməlləri nəticəsində bu ilin aprelində cəbhə bölgəsində yaşanan hadisələrin bunun əyani sübutu olduğunu bildirib.

R.Rzayev, həmçinin Belçika parlamentinin müvafiq dostluq qruplarının Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında birbaşa dialoqun qurulmasına yardım göstərmək imkanlarını araşdırmalarının münaqişənin həllinə töhfə verə biləcəyini də qeyd edib.

Gizir Mirzəyev Elşən Ağa oğluna 2009-cu ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rzayeva Zəhra Bəyverdi qızına 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 524
Nüsxə 4650